UOT 37.01

***Nahidə Xəqani qızı Əhmədova***
*Bakı Modern Təhsil kompleksinin müəllimi*

# DEBAT DƏRSLƏRİN ŞAGİRD TƏFƏKKÜRÜNÜN İNKİŞAFINDA ƏHƏMİYYƏTİ

***Нахида Хагани гызы Ахмедова***
*учитель Образовательного комплекса Баку Модерн*

# ЗНАЧИМОСТЬ УРОКОВ-ДЕБАТОВ В РАЗВИТИИ МЫШЛЕНИЯ УЧЕНИКОВ

***Nahida Khagani Ahmedova***
*Teacher of the Educational Complex of Baku Modern*

# THE SIGNIFICANCE OF LESSONS-DEBATES IN DEVELOPING THE THINKING OF STUDENTS

**Xülasə:** Debatlar həm siyasi mövzularda rəsmi orqanlarda, parlamentlərdə, həm də elmi və yaradıcılıq məqsədləri ilə keçirilir. Bir incəsənət metodu kimi debatın əsas məqsədi istənilən mövqedə opponentlə bərabər şərtlər altında rasional şəkildə müzakirə aparmaq bacarığının formalaşdırılmasıdır. Debat üçün mövzu elə seçilməlidir ki, o, şagirdlər üçün maraqlı və geniş müzakirə imkanları yaratsın.
***Açar sözlər:*** *debat, təfəkkür, faktlar, mübahisə, problem, inteqrativ, qrup işi, müzakirə, dəqiqlik.*

**Резюме**: Дебаты проводятся как по политическим вопросам в официальных органах, парламентах, так и в научных и творческих целях. Как метод искусства, основная цель дебатов заключается в том, чтобы сформулировать умение на равных условиях в рациональной форме вести обсуждение с оппонентом. Тема для дебатов должна быть выбрана так, чтобы она могла создавать интересные и широкие возможности для обсуждения среди учеников.
***Ключевые слова:*** *дебаты, мышление, факты, аргументы, проблемы, интегративность, групповая работа, обсуждение, точность.*

**Summary:** Debates are held both on political issues in official bodies, parliaments, and for scientific and creative purposes. As a method of art, the main purpose of the debate is to formulate an ability to discuss rationally with an opponent on an equal footing. The topic for debate should be chosen so that it can create interesting and ample opportunities for discussion among students.
***Key words:*** *debate, thinking, facts, argument, problem, integrative, group work, discussion, accuracy.*

Debat interaktiv və müxtəlif əks fikirli tərəflərin təmsilçilərindən ibarət müzakirə metodudur. Debat yalnız nəticəni analiz edən deduktiv əsaslandırmadan, yalnız nəyinsə doğru olub-olmadığını müəyyən edən faktual mübahisədən və yalnız inandırma taktikalarından ibarət ritorikadan fərqli olaraq, daha geniş anlayışı özündə əks etdirir. Debatda məntiqi davamlılıq, faktların dəqiqliyi və auditoriyaya emosional müraciət inandırma üçün mühüm rol oynayır və məsələni daha üstün kontekstdə və çərçivədə, daha mahircəsinə əsaslandıra bilən tərəf digərini üstələyir. Debatda faktlardan daha çox tərəflərin öz aralarında gəldiyi konsensus və ya birgə formal nəticəyə gəlmə əsas rol oynayır. Formal debat yarışlarında tərəflərin hər biri üçün keçərli müəyyən qaydalar və çərçivə mövcud olur.

Debat şagirdləri bir mövzunun fərqli tərəfləri haqqında müzakirəyə yönəldən bir müştərək öyrənmə metodudur. Müəyyən mövqe tutub onu arqumentlərlə müdafiə etməyi öyrənmək demokratik cəmiyyətdə mühüm həyat vərdişlərindən biridir. İnsanın öz inancları ilə üst-üstə düşməyən arqumentlər tapıb, onları ifadə etməyi öyrənməsi problemin diqqətli təhlilinə və ölçülüb-biçilmiş qərarların qəbuluna doğru atılmış mühüm addımdır. Debatlar zamanı müzakirə etmək

şagirdlərdə tənqidi təfəkkür vərdişləri formalaşır və qruplarının dəstəyindən bəhrələnirlər.

Debat zamanı müəyyən qaydalara əməl etmək vacibdir. Əvvəlcə şagirdlər 4 nəfərlik qruplara ayrılır və onlara müzakirə aparacaqları sual verilir. Sual birmənalı şəkildə "bəli" ya "xeyir" deyə cavablandırılacaq formada olmasına fikir vermək lazımdır. Şagirdlərə sual verildikdən sonra, onu qruplarında müzakirə etmələrini tapşırmaq lazımdır. Bu, şagirdlərin sualın nə məna verdiyi və nə üçün əhəmiyyəti olduğu barəsində ortaq bir fikir meydana çıxarmalarına imkan yaradacaqdır. Daha sonra şagirdlər soldan sağa 1,2,3,4 olaraq sayırlar. 1 və 2 nömrəli şagirdlər "bəli", 3 və 4 nömrəli şagirdlər isə "xeyir" arqumentini müdafiə etməyə hazır olmaları onların nəzərlərinə çatdırılır. Hər qrup içərisindəki tərəflərlə bir kənara çəkilib öz mövqelərini müdafiə edəcək arqumentlərin siyahısını tutmaq və düşünmək üçün 5 dəqiqə vaxt verilir. Vaxtın bitməsi müəllim tərəfindən elan olunduqdan sonra, 1 və 2 nömrəli şagirdlər digər qruplar arasında öz tərəfdaşlarını, 3 və 4 nömrəli şagirdlər isə öz tərəfdaşlarını tapması tapşırılır. Üç dəqiqə ərzində tərəfdaşlar bir-birlərinin fikirlərini dinləyir və daha əvvəl öz ağıllarına gəlməyən fikirləri qeyd edirlər. Vaxt bitdikdən sonra şagirdlər ilk tərəfdaşlarının yanına qayıdaraq bütün ideyaları bir yerə toplayırlar. Daha sonra bütün tərəfdaşlar öz mövqelərini dəstəkləyən ən yaxşı arqumentləri müəyyən etməli və 4 nəfərlik qruplarındakı digər tərəfdaşlarla debata hazırlaşmalıdırlar. Debat keçirmək üçün onlar mövqelərini ifadə edən bir cümlə və bunu müdafiə edən bir neçə yaxşı səbəb müəyyən etməlidirlər. Beş dəqiqə keçdikdən sonra eyni nömrəli cütlüklər öz qruplarındakı digər cütlükləri taparaq debata başlayırlar. Debatda əvvəlcə bir tərəf öz görüşlərini səbəbləri ilə birlikdə irəli sürür, sonra eyni şeyi digər tərəf edir. Daha sonra bir-birilərinin səbəbləri və nəticələri üzərində mübahisə edirlər. Debat 6-7 dəqiqə davam edir. Sonra müəllim qruplara bildirir ki, artıq onlara təklif olunmuş mövqedən imtina edərək, özlərinin həqiqətən dəstəklədiyi mövqeyi müdafə edə bilərlər. Debatdan çıxan nəticəni hər qrupdan bir nəfər təqdim etdikdən sonra debat bitir.

**Yarış xarakterli debatlar.** Belə debatlarda komandalar yarışır və bunlardan biri hər hansı meyarlarla görə qalib elan olunur. Yarış xarakterli debatların müxtəlif mövzulu və reqlamentli növləri mövcuddur. Burada əsas məqsəd şagirdləri gələcəkdə əhəmiyyətli müzakirələr aparma və problemlərin həlli üçün qərar qəbul etmə bacarıqlarına alışdırmaqdır. Yarış debatları lokal, ümumxalq və beynəlxalq səviyyədə keçirilir. Debatlar müəyyən edilmiş reqlamentə uyğun aparılır və şagirdlərə hakimlər nəzarət edir. Hər bir tərəf qalib gəlməyə çalışır. Tərəflər ya verilən bəyanatın tərəfində, ya da əlehində dayanır. Təsdiq edən tərəf öz təkliflərini müdafiə üçün debat aparır, inkar edən tərəf isə verilən arqumentləri təkzib etməyə çalışır.

**Problem mübadiləsi debatları.** Problem mübadiləsi bir müştərək öyrənmə fəaliyyətidir. Burada şagirdlər işlənilən mövzunun içərisindən bir problem təyin edir və bu problem haqqında başqa bir qrup tərəfindən cavablandırılacaq bir məsələ formalaşdırır. Bu cür debat dərslər mövzularla bağlı problemlər formalaşdırmağı və başqaları ilə münasibət qurmağı öyrədir. Problem mübadiləsi zamanı 4 nəfərdən ibarət qruplar yaradılır. Zərurət yaranarsa qruplar 5 nəfərdən də yaradıla bilər. Bu qrupların sayı istənilən qədər ola bilər.

Hər qrupa problemi kağıza yazaraq başqa qrupa vermələri tapşırılır. Problemin yazıldığı kağızı aldıqları andan etibarən hər bir qrup müəyyən zaman ərzində bu problemin həlli yolunu tapmalıdır. Qrup problemi həll etdikdən sonra digər qrupa problem və onun həlli yollarını izah edir.

**Rollu debatlar.** Bu cür debat dərslər kiçik qrup müzakirələrini idarə etmək üçün istifadə olunan müştərək öyrənmə metodudur. Bu metoddan bir mətn oxunduqdan və ya bir mövzu təqdim edildikdən sonra istifadə olunur. Hamı eyni mətni və ya mövzunu müzakirə edir. Hər şagird fərqli roldan çıxış edərək mövzuya fərqli prizmadan yaraşır. Rollar qavramanın müxtəlif istiqamətlərini ortaya çıxaracaq şəkildə seçdiyi üçün metod şagirdlərin xüsusilə bu istiqamətləri fəal surətdə tətbiq etmə yolu ilə öyrənmələrini təmin edir. Şagirdlər daha sonra fərdi şəkildə işləyərkən bütün bu fərqli rolları birləşdirərək istənilən bir mövzunu geniş şəkildə anlama bacarığı qazanmış olacaqlar.

Ədəbi mətnə müxtəlif nöqteyi nəzərdən yanaşmaq mümkündür və bu şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirir. Rollu debatlar fərqli nöqteyi-nəzərləri ön plana çəkir və şagirdlərə

müzakirələrdə aktiv rol oynamağı, müzakirə mövzusu olan materialı tam şəkildə öyrənməyi, sinif yoldaşlarının öyrənməsinə məsuliyyət daşımağı və hər dəfə qavrama aspektlərindən birini təcrübədən keçirməyi öyrədir.

**Problemin aktuallığı.** Debat interaktiv və müxtəlif əks tərəflərin təmsilçilərindən ibarət müzakirə metodudur. Debat yalnız nəticəni analiz edən deduktiv əsaslandırmadan, yalnız nəyinsə doğru olub olmadığını müəyyən edən faktual mübahisədən və yalnız inandırma taktikalarından ibarət ritorikadan fərqli olaraq, daha geniş anlayışı özündə əks etdirir.

**Problemin elmi yeniliyi.** Debatda məntiqi davamlılıq, faktların dəqiqliyi və auditoriyaya emosional müraciət inandırma üçün mühüm rol oynayır və məsələni daha üstün kontekstdə və çərçivədə, daha mahircəsinə əsaslandıra bilən tərəf digərini üstələyir. Debatda faktlardan daha çox tərəflərin öz aralarında gəldiyi konsensus və ya birgə formal nəticəyə gəlmə əsas rol oynayır.

**Problemin praktik əhəmiyyəti.** Ümumtəhsil məktəblərində debat dərslərin hazırlanması, tətbiqi və qiymətləndirilməsi şagirdlər tərəfindən maraqla qarşılanır. Debat üçün mövzu elə seçilməlidir ki, o, şagirdlər üçün maraqlı və geniş müzakirə imkanları yaratsın.

**Ədəbiyyat:**

1. A. Süleymanova. Təhsilin əsasları. Bakı, 2015.
2. A. Qəhrəmanov. Orta məktəb üzrə fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə “Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə” təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı, 2012.
3. Z. Veysova. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2- ci modulu üzrə “Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə” təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı: İ”nkişaf” elmi mərkəzi, 2012.

E-mail: nahide_ehmed@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* Ə.Ə. Gərayev,
*ped.ü.fəls.dok., dos.* M.S. Kazımov
**Redaksiyaya daxil olub: 03.05.2018**